# İsanın Doğuluşu



Müəllif: Edward Hughes
İllüstrasiya edən: M. Maillot

Tərcümə edən: Günay Karaağac
Uyğunlaşdıran: E. Frischbutter; Sarah S.

60 Hekayənin 36-cisi

**M1914.org**

**Bible for Children, PO Box 3, Winnipeg MB R3C 2G1 Canada**

Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini
çıxarda bilmək hüququna maliksiniz.













İsanın Doğuluşu

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

Matta 1-2, Luka 1-2

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

21

**Allah, Onun** günah adlandırdığı pis şeyləri etdiyimizi **bilir**.
Günahın cəzası ölümdür.

**Allah bizi o qədər çox sevir** ki, O Öz yeganə Oğlunu, İsanı
Çarmıxda ölmək və bizim günahlarımıza görə cəzanı ödəmək
üçün gəldi. **İsa dirildi** və Göylərə getdi! İndi Allah bizim
günahlarımızı bağışlaya bilər.

**Əgər sən öz günahlarından dönmək istəyirsənsə**, bunu Allaha
de: Əziz Allah, mən inanıram ki, İsa mənim üçün öldü və indi
yenidən yaşayır. Xahiş edirəm, həyatıma gəl və mənim
günahlarımı bağışla ki, indi mən yeni həyata malik ola və sonra
Səninlə əbədiyyən yaşaya bilim. Sənin üçün və Sənin övladın
kimi yaşamaqda mənə kömək et. Amin. Yəhya 3:16

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış!**

Azerbaijan


“Bu necə olacaq?” lərzəyə gəlmiş qız soruşdu. “Mən heç kişi görməmişəm”. Mələk Məryəmə dedi ki, körpə Allahdan gələcək. Onun cismani atası olmayacaq.
3
Sonra mələk Məryəmə dedi ki, onun qohumu Elizavetin yaşlı vaxtında bətninə oğlan uşağı düşübdür.
4
Məryəm Yusif adlı bir adamla nişanlı idi. Yusif Mərməyin hamilə olduğunu eşidəndə kədərləndi. O fikirləşdi ki, uşağın atası başqa bir adamdır.
5
Yuxuda Allahın mələyi Yusifə dedi ki, bu uşaq Allahın Oğludur. Yusif İsaya baxmaq üçün Məryəmə kömək etməli idi.
6
Yusif Allaha güvəndi və itaət etdi. O, həmçinin, öz ölkəsinin qanunlarına da itaət etdi. Yeni qanuna görə, o və Məryəm vergilərini ödəmək üçün öz şəhərlərinə, Bet-Lexemə getməliydilər.
7
Məryəmin doğuş vaxtı çatdı. Lakin Yusif heç bir yerdə otaq tapa bilmirdi. Bütün yataqxanalar dolmuşdu.
8
Nəhayət ki, Yusif tövlə tapdı. Körpə İsa orada doğuldu. Onun anası Onu axura, adətən heyvanların yeməyi qoyulan yerə qoydu.
9
Yaxınlıqda çobanlar öz sürülərini otarırdılar. Allahın mələyi onlara göründü və bu xoş xəbəri onlara dedi. “Bu gün Davudun şəhərində sizin üçün Xilaskar doğuldu. Siz axurda yatan bələnmiş Körpə tapacaqsınız”.
10
Qəflətən mələyin yanında Allaha həmd edən çoxsaylı səmavi ordu göründü. Onlar belə deyirdi: “Ən ucalarda Allaha izzət, yer üzündə Onun razı olduğu insanlara sülh olsun!”
11
Çobanlar tələsik tövləyə getdilər. Çobanlar Körpəni görəndən sonra mələyin İsa haqqında onlara nəql etdiklərini bildirdilər.
12
Yusif və Məryəm qırx gündən sonra İsanı Yerusəlimdəki məbədə gətirdilər. Orada Şimon adlı adam Körpəyə görə Allaha alqış etdi. Bu zaman Rəbbin digər xidmətçisi olan yaşlı qadın Xanna da Rəbbə şükürlər etdi.
13
Onların hər ikisi İsanın Allahın Oğlu, vəd olunmuş Xilaskar olduğunu bilirdilər. Yusif iki qumru quşunu qurban gətirdi. Bu, Allahın Qanununda kasıb adamların yeni doğulan körpəni Rəbbə təqdim etmək üçün olan qurban idi.
14
Bir müddət keçdikdən sonra xüsusi bir ulduz müdrik adamları şərqdən Yerusəlimə apardı.
“Yəhudilərin anadan olmuş Padşahı haradadır?” onlar soruşdular. “Biz Ona səcdə qılmaq istəyirik”.
15
Padşah Hirod müdrik adamlar haqqında eşitdi. Tələsə düşərək onlardan İsanı taparkən ona da dемələrini xahiş etdi. “Mən də Ona səcdə qılmaq istəyirəm”, Hirod dedi. Ancaq o yalan deyirdi. Hirod İsanı öldürmək istəyirdi.
16
Ulduz müdrik adamları düz Məryəm və Yusifin körpə Uşaqla olduqları evə aparıb çıxartdı. Səyyahlar yerədək qapanıb səcdə edərək, İsaya xəzinələrindən qızıl və ətir hədiyyələri verdilər.
17
Allah müdrik adamlara evə başqa yolla qayıtmaları haqda xəbərdarlıq etdi. Hirod zalım idi. İsanı məhv etməyə qərarlı olaraq, zalım padşah Bet-Lexemdəki bütün oğlan uşaqlarını öldürdü.
18